# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 248/3** **19 dekabr 2013-cü il**

**“Auditor xidmətində haqsız rəqabət hallarının və maraqlar toqquşmasının qarşısının alınmasına dair Təlimat”ın layihəsinin müzakirəsinə dair**

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununa, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməyə, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın 9.1-ci, “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının İş Planının (2012-2015-ci illər) 1.4.1-ci bəndlərinə uyğun olaraq Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi M.Abbasov tərəfindən hazırlanmış “Auditor xidmətində haqsız rəqabət hallarının və maraqlar toqquşmasının qarşısının alınmasına dair Təlimat”ın layihəsini müzakirə edərək, Auditorlar Palatası Şurası

**QƏRARA ALIR:**

1. “Auditor xidmətində haqsız rəqabət hallarının və maraqlar toqquşmasının qarşısının alınmasına dair Təliimat”ın layihəsi barədə Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi M.Abbasovun məruzəsi nəzərə alınsın.
2. “Auditor xidmətində haqsız rəqabət hallarının və maraqlar toqquşmasının qarşısının alınmasına dair Təlimat” təsdiq edilsin (əlavə olunur).
3. Aparatının rəhbərliyinə, struktur bölmələrinin və müvafiq Komitələrin rəhbərlərinə tapşırılsın ki, “Auditor xidmətində haqsız rəqabət hallarının və maraqlar toqquşmasının qarşısının alınmasına dair Təlimat”ın tələblərindən irəli gələn vəzifələrin icrasını təmin etsinlər.
4. Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 5 sentyabr tarixli sərəncamının. “Fəaliyyət Planlarının icrası üzrə illik iş planlarını təsdiq etsinlər və bu barədə məlumatı Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim etsinlər” 3.2-ci bəndinə uyğun olaraq “Auditor xidmətində haqsız rəqabət hallarının və maraqlar toqquşmasının qarşısının alınmasına dair Təlimat” hazırlanacaq illik hesabata əlavə edilsin və aidiyyatı qurumlara göndərilməsi (M.Abbasov) təmin olunsun.
5. Bu qərar və “Auditor xidmətində haqsız rəqabət hallarının və maraqlar toqquşmasının qarşısının alınmasına dair Təlimat” Palatanın internet səhifəsində yerləşdirilsin.
6. Qərarın icrasına nəzarəti özümdə saxlayıram.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**